*UOT 159.9*

***Sona İbrahim qızı Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*ORCİD İD: 0000-0002-2696-4292*
https://doi.org/10.69682/azrt.2024.91(1).221-225

# TƏFƏKKÜRÜN TƏNQİDİLİYİ MƏSƏLƏSİNƏ PSİXOLOJİ CƏRƏYANLAR TƏRƏFİNDƏN YANAŞMA

***Сона Ибрагим гызы Алиева***
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ПОДХОД К ВОПРОСУ КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ С ТОЧКИ ЗРЕНИЯ ПСИХОЛОГИЧЕСКИХ ТЕЧЕНИЙ

***Sona Ibrahim Aliyeva***
*head teacher at the Azerbaijan State Pedagogical University*

# AN APPROACH TO THE ISSUE OF CRITICAL THINKING IN THE MAIN AREAS OF PSYCHOLOGY

**Xülasə.** Müasir psixologiyada ağlın müxtəlif keyfiyyətlərini fərqləndirirlər. Şəxsiyyətin təfəkkürünü fərdi-psixoloji aspektdən səciyyələndirmək üçün ağlın dərinliyi, genişliyi, çevikliyi, sürəti, müstəqilliyi, tənqidiliyi, məntiqiliyi və s. keyfiyyətlərdən istifadə olunur. Bu keyfiyyətlər insanı dəyərləndirən mühüm keyfiyyətlər olub bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır. Son dərəcə böyük praktik əhəmiyyəti olan bu keyfiyyətlərin inkişaf səviyyəsinə görə insanlar bir-birindən fərqlənirlər. Təfəkkür problemi və onun tənqidilik xüsusiyyəti psixologiya tarixində mövcud olan bir çox cərəyanlar tərəfindən öyrənilmişdir. Vyusburq məktəbi, assosianizm, geştaltpsixologiya və biheviorizm cərəyanının nümayəndələri təfəkkür problemi və onun tənqidilik xüsusiyyətinə fərqli yanaşmalar etmişlər.
***Açar sözlər:*** *təfəkkür, tənqidilik, psixoloji cərəyan, keyfiyyət, şəxsiyyət, düşüncə*

**Резюме.** В современной психологии выделяют разные качества ума. Чтобы охарактеризовать мышление личности с точки зрения индивидуально-психологического аспекта используются качества ума, такие как широта, гибкость, быстрота, самостоятельность, критичнось и т.д. Эти качества являются важными качествами и взаимно связаны друг с другом. Люди отличаются друг от друга по уровню развития этих качеств, имеющих большое практическое значение. Мышление, особенно критичность мышления изучались многими направлениями в истории психологии. Представители школы Вьюсбурга, ассоцианизма, гештальт-психологии и бихевиоризма по-разному подходили к проблеме мышления и его критичности.
***Ключевые слова:*** *мышление, критичность, психологическое направление, качество, личность, мысль*

**Summary.** In modern psychology, different qualities of the mind are distinguished. To characterize a person's thinking from an individual psychological aspect, qualities of the mind are used, such as breadth, flexibility, speed, independence, criticality, etc. These qualities are important and mutually related to each other. People differ from each other in the level of development of these qualities, which are of great practical importance. Thinking, especially critical one, has been studied in many directions in the history of psychology. Representatives of the Wyusburg school, associationism, Gestalt psychology and behaviorism took different approaches to the matter of thinking and its criticality.
***Key words****: thinking, criticality, approaches to psychology, quality, personality, thought*

Təfəkkür problemi psixologiya tarixində mövcud olan bir çox cərəyanlar tərəfindən öyrənilmişdir. XVII-XVIII əsrlərdə Almaniyada təşəkkül tapan assosianizm cərəyanının nümayən-

dələri assosiasiyanı, insanın psixi həyatının universal qanunauyğunluğunun əsas prinsipi hesab edirdilər. Onlar assosiasiyanı fikri fəaliyyətin, ağlın, düşüncənin, təfəkkürün, psixi olanın əsas struktur vahidi kimi qəbul edirdilər. Təfəkkürə də assosianistcəsinə yanaşanlar bu psixi prosesin inkişafını – assosiasiyaların toplanması prosesi ilə əlaqədar olduğunu göstərmişlər. Təfəkkür – obrazlı xarakter daşıyır və obrazlardan ibarət olan assosiativ prosesdir. Assosianistlər insanın fikri fəaliyyətinin məzmununu yalnız hiss komponentlə – obrazla əlaqələndirirdilər. Buradan göründüyü kimi subyekt aktiv yox, passiv müşahidəçi kimi çıxış edir.

Assosiasiyanın qanunauyğunluqları bu cərəyanın görkəmli nümayəndələri sayılan D.Yum, D.Hartli, C.Mil, A.Ben, T.Ribo, Q.Ebbinhauz, T.Siqen və başqaları tərəfindən öyrənilmişdir. Məsələn, T.Siqen təfəkkür forması kimi anlayışı “təsəvvürlərin assosiasiyası”, hökmü “anlayışların assosiasiyası”, əqli nəticəni isə “hökmlərin assosiasiyası” kimi nəzərdən keçirmişdir. Assosiasiya prinsipi heç şübhəsiz psixoloji reallıqdır və assosianist yanaşmaya görə təfəkkür – təsəvvürlərin assosiasiyasıdır. Təfəkkürün, əqli fəaliyyətin yalnız hiss obrazdan, təcrübədən ibarət olması, eləcə də təfəkkürün inkişafının assosiasiyaların toplanılması kimi izah olunması assosianistlərin əleyhinə çıxış edən Vyusburq məktəbinin və geştalt psixologiya cərəyanının nümayəndələrinin istinad etdiyi tutarlı müddəalar idi.

Assosianistlərin əksinə olaraq Almaniyada Vyusburq məktəbinin (O. Külpe, N. Ax, K.Marbe, O. Zelts və b.) nümayəndələri isə təfəkkürü daxili hərəkət aktı adlandırırdılar. Vyusburq məktəbinin nümayəndələri assosianistləri idealist mövqe tutduqlarına görə tənqid etmiş, onların əksinə çıxış edərək təfəkkürü hiss əsasdan, təcrübədən uzaq olan xüsusi reallıq kimi təqdim edirdilər. Onların fikrinə görə təfəkkür heç də həmişə obrazlı deyil və o məsələ həlli prosesidir, məqsədyönlüdür, subyektin aktivliyi ilə şərtlənir. Öz fikirlərini sübut etmək üçün atalar sözü və metaforalardan istifadə edirdilər. Bu zaman onlar sistemli introspeksiya metodundan istifadə etmişlər və subyektin aktivliyinin mənbəyini ruhda görürdülər. Vyusburq məktəbinin ideyaları əsasən O. Zeltsin tədqiqatlarında inkişaf etdirilmişdir. O, hesab edirdi ki, təfəkkür – intellektual əməliyyatların həyata keçirilməsidir. O. Zeltsə görə, kompleksin tamamlanması, abstraksiya və oxşarlığın reproduksiyası əsas intellektual əməliyyatlardır.

“Antisipasiya” anlayışı da ilk dəfə məhz onun tərəfindən işlədilmişdir. Rus psixoloqu O.K. Tixomirov, O. Zeltsin təfəkkür sahəsində gördüyü işlərlə bağlı “Təfəkkürün psixologiyası” adlı əsərində yazır: O. Zeltsin işləri üçün xarakterik olan cəhət budur ki, təfəkkür eksperimental tədqiq tarixində, ilk dəfə təfəkkür psixi proses kimi onun tərəfindən öyrənilmişdir. Həmçinin psixologiya tarixində O. Zelts birinci olaraq əsas intellektual əməliyyatlar problemini tədqiq etmiş və onların tərkibini ən kiçik hissələrinədək araşdırmağa çalışmışdır.

XX əsrin əvvəlində Almaniyada yaranan geştaltpsixologiya məktəbinın nümayəndələri (M.Vertheymer, V.Köler, K.Kofka, K.Dunker) assosianistlərə əks olan müddəalarla çıxış edirdilər. Geştaltpsixologiyanın əsas müddəasını belə bir fikir təşkil edirdi ki, hər bir psixi prosesin əsas məzmununu, heç də ayrı-ayrı elementlər-duyğular deyil, konfiqurasiya, forma və “geştaltlar”dan ibarət olan bütöv, tam olan təşkil edir. Onlar əsasən qavrayışı tədqiqat obyekti kimi götürürdülər. Sonradan bəzi nəticələr təfəkkürün öyrənilməsilə bağlı istifadə olunmuşdur. Qavrayışın tədqiqi zamanı çıxış nöqtəsi kimi görmə sahəsinin fiqura və fona ayrılması əsas götürülmüşdür. Fiqur və yaxud “geştaltın” qavranılmasına şərait yaradan faktorlar: ayrı-ayrı elementlərin bir-birinə yaxınlığı, elementlərin oxşarlığı, yaxşı fiqura istiqamətlənmə (sadəlik, simmetriklik, qapalılıq) öyrənilmişdir. Qavrayışın əsas qanunlarından biri – yaxşı formaya, simmetrikliyə, qapalılığa və s. olan meyl – “preqnantlıq qanunudur”. Preqnantlıq qanunu əsasında, baş beyində olan bərabərliyə, tarazlığa olan oyanma dayanır. Qavrayışın öyrənilməsi ilə bağlı olan qanunlar sonradan təfəkkürün öyrənilməsi zamanı istifadə olunmuşdur.

V.Köler hesab edir ki, intellektual davranış heç də subyektin əvvəlki fəaliyyətindən, təcrübəsindən asılı olmayan qəfil davranışdır. İnsanın fikri fəaliyyətini tədqiq edən geştaltpsixoloqlar M. Vertheymer və K. Dunker hesab edirdilər ki, məsələ həlli zamanı problem şərait ayrı-ayrı hissələri yeni geştaltda, yeni münasibətlərdə qavramağa başlayır.

M. Vertheymer "Səmərəli təfəkkür" adlı əsərində öz eksperiment və müşahidə nəticələrinin, eləcə də Qalileyin, Eynşteynin kəşflərinin təhlili əsasında yazırdı ki, təfəkkür prosesində insan problemli situasiyanın xüsusiyyət və tələblərini nəzərdən keçirib dərk eləyir, buna uyğun olaraq da vəziyyəti yaxşılığa doğru dəyişir. "Bunun sayəsində yenidən qruplaşdırma aparmağa, struktur mərkəzləri tapmağa, əqli əməliyyatların rolunu və əhəmiyyətini anlamağa nail olunur". Problem şəraitin yenidən strukturlaşdırılması nəticəsində predmetin yeni cəhətləri qavranılır və yeni xüsusiyyətlər müəyyən edilir. Təfəkkür problemi olan məsələ həllinin mahiyyəti obyektin yeni xüsusiyyətlərinin aşkar olunmasıdır. Əgər assosianistlər məsələnin həllini keçmiş təcrübədən çıxış etməklə tapırdısa, geştaltlar əksinə, keçmiş təcrübədən imtina etmədən problem şəraitinin təşkilini əsas faktor kimi götürürdülər. K. Dunker məsələ həllinin "funksional" və "son" mərhələdən ibarət olduğunu göstərmişdir. Beləliklə, geştaltpsixoloqlar təfəkkürü şəraitin yenidən qurulması aktı kimi xarakterizə edirdilər.

Onlar təfəkkürü heç də yalnız məsələ həlli prosesi kimi deyil, subyektin şəraitlə bağlı düşdüyü şəraitin, keçmiş təcrübənin rekonstruksiyası hesab edirdilər. Assosianistlərdən fərqli olaraq onlar keçmiş təcrübəni təfəkkür üçün maneə bilirdilər. Geştaltpsixologiya səmərəli təfəkkürü (produktiv) yeni olana səbəb olan əsl təfəkkür kimi qiymətləndirirdi. M. Vertheymerə görə təfəkkür – problemli situasiyanın xüsusiyyət və tələbini nəzərdən keçirib, dərk etmək və uyğun olaraq vəziyyəti yaxşılığa doğru dəyişməkdir. Geştaltpsixologiyanın əsas perseptiv sahə qanununa görə struktur gərginliyi olan situasiya harmoniya situasiyasına doğru hərəkət edir. Deməli, bu qanun təfəkkürün tənqidilik keyfiyyətinə də aid edilir. Bu cərəyanın nümayəndəsi olan K. Dunkerin eksperimental tədqiqatlarında ucadan düşünmək metodundan geniş surətdə istifadə olunmuşdur. Yenidən strukturlaşdırma prosesində gərginlik, onun yaranması və həyata keçirilməsinin mexanizmlərinin axıra qədər izah olunmaması geştaltpsixologiyanın tənqid olunan cəhəti idi.

Təfəkkür məsələsində XX əsrin əvvəlində meydana gələn biheviorist cərəyanın banisi C. Uotson isə insan təfəkkürünə daha geniş mənada yanaşmış, onu daxili nitqlə, hətta verbal kommunikasiya vasitələrilə eyniləşdirmişdir. C. Uotsona görə, təfəkkür ümumi anlayışdır və özündə bütün səssiz davranışı əks etdirir. Ona görə də bihevioristlər təfəkkürü davranış kimi səciyyələndirirdilər. Təfəkkürün idrak prosesi kimi inkişafını yalnız insan fəaliyyətini, onun ən əsas forması olan əmək fəaliyyətini öyrənməklə başa düşmək olar.

Primitiv təfəkkürdən – səmərəli təfəkkürə. İbtidai insanların vital tələbatlarını ödəmək zərurəti eləcə də vəhşi heyvanların hücumundan müdafiə olunmaq istəyi, yaşamaq, sağ qalmaq arzusu və s. qarşıya çıxan məsələləri həll edərkən funksiyaların bölünməsini zəruri etmişdir. Burada qrup üzvlərinin gördüyü iş, aldığı tapşırıq mövcud şəraitdən və onların əvvəlki təcrübəsindən, buna bənzər şəraitdə etdiyi hərəkətdən asılı idi. İnsanların oturaq həyata, daimi yaşayış yeri və həyat tərzinə keçməsi artıq qəbilə üzvlərinə qarşı müəyyən tələblərin irəli sürülməsilə nəticələnmişdir. Belə şəraitdə artıq qəbilə üzvlərinə qarşı olan tələblər əvvəlcədən həll olunurdu.

Birgə yaşayış, oturaq həyat tərzi qəbilə üzvləri arasında müəyyən qadağa və tabuların yaradılmasını zəruri etmişdir. Həmin qadağa və tabuların pozulması cəzalandırmanı meydana çıxardı. Alman psixoloqu F. Kliks hesab edir ki, totemizm ictimai həyatın, əmək bölgüsünün erkən forması ilə əlaqədar olaraq meydana gəlmişdir. Qəbilənin özü üçün müəyyən etdiyi totem (heyvan, quş, bitki, ağac, həşərat) həmin birlik üçün simvol olub, daima qəbilə üzvlərinə ümumi olan tarixi xatırladırdı.

Tarixi şüur isə dilin olmasını tələb edir. Tarixi hadisələr vasitəsiz surətdə qəbul olunmur, ötürülmür. Tarix haqqında məlumat yalnız dil vasitəsilə əldə olunur. İnsan dil vasitəsilə refleksiya edir, ətraf mühiti dərk edə bilir. Totem – simvol kimi qəbilə üzvlərinə onların birliyini ifadə edir və daima onlara xatırladır. Deməli, simvol vasitəsilə baş verən təfəkkür refleksiv təfəkkür adlanır. Bir qəbilənin totemi ilan, digərinki isə qartaldırsa, onda totemlər haqqında olan düşüncə sosial varlıq kimi fərdin özü haqqında olan düşüncəsidir. Deməli, arxaik təfəkkür deyəndə insanın simvollar vasitəsilə özünün təbii və sosial çevrəsi ilə qarşılıqlı təsirinin ən erkən idrak forması nəzərdə tutulur.

F. Kliks özünün "Oyanmış təfəkkür" əsərində arxaik təfəkkürün mexanizmlərini belə göstərir:

1) fərdin onu əhatə edən təbiətlə olan yüksək səviyyədə birliyi;

2) fərdlə qəbilə arasında olan inteqrasiyanın güclülüyü; tayfa, qəbilə ilə olan ruhi, emosional əlaqə – arxaik təfəkkürün təzahür formasıdır.

3) ünsiyyət zamanı yüksək emosional həssaslıq və affektiv gərginlik. Bu xüsusiyyət həyat şəraitinin qeyri – müəyyən və qeyri – stabil olması ilə əlaqədardır.

4) çox güclü obrazlılıq və eyni zamanda hafizənin məzmununun ikonik bütövlüyü ilə yadasalma və təxəyyül fəaliyyəti.

Arxaik təfəkkürün yüksək emosionallığı fiziki və psixoloji məsələlərlə xüsusilə, qəbilənin birgə həyatında baş verən yaxınların ölümü, yeni uşağın doğulması, aclıq, düşmənlərdən gələn qorxu, çarəsiz xəstəlik, itkin düşmə və s. hadisələrlə bağlı idi.

Arxaik təfəkkür əsasən iki funksiyanı yerinə yetirirdi. Birincisi, təbiətin yeni, naməlum hadisələri analogiya yolu ilə məlumlar əsasında şərh edilirdi. Məsələn, ildırım və su daşqını qaydaların pozulmasına görə olan cəza kimi qavranılırdı. Animistik təfəkkür təbiət hadisələrinin səbəbləri ilə bağlı olan boşluğu doldura bilirdi. Bu şəraitdə analogiya əsasında olan əqli nəticə, davranışın koqnitiv mexanizmini təşkil edirdi.

İkinci funksiyanı isə birgə həyatın təşkili ilə əlaqədə nəzərdən keçirmək lazımdır. Fərdin özünü qəbilə, tayfa davranış qaydaları ilə eyniləşdirməsi sosial əlaqələr şəbəkəsini yaradır. Əmək bölgüsü ilə əlaqədar olaraq qəbilənin ayrı-ayrı üzvlərinin marağı fərqlənirdi. Ona görə də sosial əlaqələrin qırılmasının qarşısını almaq üçün individualist meyllərin əksinə xidmət edən qorxu emosiyasına əsaslanan müxtəlif əks motivasiya yaradılırdı.

Produktiv fikri fəaliyyətin yaranmasının, təfəkkürün inkişafının motivasiya əsasını ibtidai insanların həyat şəraitinin qeyri-müəyyən olması təşkil edir. Vital tələbatların ödənilməsi ilə bağlı olan təhlükələr, qrup halında yaşamaq imkanından məhrum olmaq qorxusu, uğursuz ov, vəhşi heyvan hücumu, qorxaqlıq, ölüm, xəstəlik, epidemiyalar və s. qarşısında gücsüzlük, acizlik və çarəsizlik daima hazır olmaq və kollektiv şəkildə cavab vermək, fəaliyyət göstərmək zərurətini yaratmışdır. Bu cür problemlərdən uzaq olmağın yeganə çıxış yolu – gələcəklə bağlı məlumata malik olmaqdır. Gələcək haqqında əldə olunan məlumatlar fiziki, bioloji, sosial və psixoloji əhəmiyyət kəsb edirdi. Belə bir imkan qavranılan göstəricilər əsasında gələcək haqqında xəbər vermək məqsədilə koqnitiv strategiyaların hazırlanmasına xidmət edən həlledici motivasiyanın əsasını təşkil edir.

**Problemin aktuallığı.** Psixologiya elminin tarixini inkişaf etdirmək, psixoloji nəzəriyyə, ideya və konsepsiyaların mənşəyini, inkişaf xüsusiyyətlərini sistemləşdirmək, elmi nəzəri aspektdən təhlil etmək, onlardan obyektiv nəticələr çıxarmaq müasir dövrdə Azərbaycan psixologiyası, onun perspektiv inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan mövzu aktualdır.

**Problemin elmi yeniliyi.** Tədqiqat apararkən verilən tələblərdən biri öyrənilən problemin müvafiq ədəbiyyatlarda necə qoyulması və araşdırılmasını öyrənməkdən ibarət olmalıdır. Çünki mövzuya düzgün yanaşa bilmək üçün, mövcud olan məlumatlar içərisində dolaşmamaq üçün əsas şərt tarixi rabitəni bilməkdir. Yəni tədqiq olunan məsələnin necə əmələ gəldiyi, öz inkişafında hansı mərhələlərdən keçdiyini və hal-hazırda hansı vəziyyətdə olduğunu bilməkdir. Elə buna görə də təfəkkürün tənqidiliyi keyfiyyətinin tədqiqi tarixinə dair müəyyən məlumat vermək vacibdir.

**Problemin tətbiqi əhəmiyyəti.** Problemin praktiki əhəmiyyəti bir sıra sahələri, o cümlədən tarix, fəlsəfə, ədəbiyyat, idarəetmə, politologiya, təhsil, tərbiyə, mədəniyyət və başqa sahələri əhatə edir. Bu materialdan təfəkkür və onun keyfiyyətlərini öyrənmək istəyən psixoloqlar, tələbələr, magistrlər, eləcə də tarixçi-psixoloqlar psixologiya tarixi kursu üzrə əlavə mənbə kimi istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Seyidov, S. İ. Yaradıcılığın fenomenologiyası. / S. İ. Seyidov. – Bakı: Qanun, – 2013. – 288 s.
2. Батлер – Боудон Том. 50 великих книг по психологии / Том Батлер-Боудон; (пер.с англ. В.Соколовой). – М.: Эксмо, – 2014. – 608 с.
3. Клустер, Д. Что такое критическое мышление? // Перемена: Международный журнал о развитии мышления через чтение и письмо. – 2001, №4. – с. 36-40.

4. Король С.А. Классификации особенностей критичности мышления. www.voppsy.ru.108
5. Самарин, Ю. А. Очерки психологии ума. / Ю. А. Самарин. – М.: Издательство АПН РСФСР, – 1962. – 504 с.
6. Тихомиров, О.К. Психология мышления. Учебное пособие. / О.К. Тихомиров. – М.: Изд-во Моск. ун-та, – 1984. – 272 с.
7. Халперн, Д.Ф. Психология критического мышления. / Д.Ф. Халперн. – СПб.: Питер, – 2000. – 512 с.

**E-mail:**sonasi83@mail.ru
**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.* **M.S. Əliyev,**
*psixol.ü.fəls.dok., dos.* **Ü.A Əfəndiyeva**
**Redaksiyaya daxil olub:** 24.01.2024.